Azərbaycan milli teatrı – 150

# Səhnə həyatın güzgüsüdür






**Şərqdə maarif və mədəniyyət Günəşi kimi doğmuş ilk milli teatr Azərbaycanda yaranıb. 1873-cü il martın 10-da Bakı Realnı Məktəbinin teatr həvəskarları truppası tərəfindən Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyulub. Möhkəm əsaslar üzərində formalaşan Azərbaycan teatrı tədricən inkişaf edərək bugünkü mükəmməl səviyyəsinə çatıb.**

Milli teatrımızın təşəkkülü elə bir vaxtda baş vermişdi ki, ictimai-siyasi hadisələr fonunda köklü dəyişikliklər baş verirdi, böyük maarifçi Mirzə Fətəli Axundzadə ədəbiyyatımıza dram janrını gətirmişdi və eyni zamanda xalq teatrı peşəkar milli teatra çevrilirdi.

Prezident İlham Əliyevin peşəkar milli teatrımızın 150 illiyinin qeyd olunması ilə bağlı imzaladığı 3 fevral 2023-cü il tarixli sərəncamda qeyd edilir ki, ötən əsrin 70-ci illərində ziyalıların Bakı, Şuşa, Şəki, Lənkəran, Naxçıvan, Tiflis və İrəvanda təşkil etdikləri tamaşalar bu şəhərlərin mədəni həyatında mühüm rol oynayıb. Daim fəal mövqeyi ilə seçilən Azərbaycan teatrı ictimai fikrin ön sıralarında dayanıb, cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına əhəmiyyətli təsir göstərib. Ədəbi fikir tariximizin görkəmli nümayəndələri xalqa müraciət üçün teatr səhnəsindən yüksək xitabət kürsüsü kimi istifadə ediblər.

Xalqımızın mədəni sərvəti hesab olunan teatrın ilk işartılarının daha əvvəlki vaxtlara təsadüf etdiyi də bəllidir. İlk tamaşaların hələ ötən əsrin 40-cı illərində Şuşada oynanıldığı barədə ehtimallar var. Bir qədər sonra Şamaxıda ilk teatr binası tikilib. Xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru, Prezidentin fərdi təqaüdçüsü Əli Nur "Xalq qəzeti"nə yazdığı məktubda qeyd edir ki, "Kavkaz" qəzetinin 6 iyul 1858-ci il tarixli sayında Şamaxıda tamaşa oynanıldığı barədə məlumat var. Xəbərdə yazılıb ki, Şamaxı ziyalıları 1857-ci il dekabrın 6-da xeyriyyə məqsədilə tamaşa veriblər. Tamaşadan əvvəl dekorasiyalar çəkiblər, tələm-tələsik afişalar yazıblar. Dalbadal beş tamaşa oynanılıb.

Təəssüf ki, nə Şuşada, nə də Şamaxıda göstərilən tamaşaların hansı əsərlər əsasında oynanıldığı, kimlər tərəfindən hazırlandığı, ifaçıların kimliyi barədə əldə hər hansı bir afişa, proqram, məlumat və ya resenziya yoxdur. Ona görə də milli peşəkar teatrımızın təşəkkülünü 1873-cü ildən daha əvvəlki tarixindən götürmək elmi-tədqiqat və tarixi dürüstlük baxımından əsassızdır. Bəlkə də nə vaxtsa həmin tamaşaların göstərilmə tarixlərini təsdiqləyən sənədləri əldə etmək mümkün olacaq.

Elə buradaca vurğulayaq ki, dövlət başçısının peşəkar milli teatrın 150 illik yubileyinin qeyd edilməsi barədə sərəncam imzalaması teatrlarımız üçün çox əlamətdar hadisədir. Bu gün Azərbaycan teatrı üçün nəinki Bakıda, digər şəhərlərimizdə zəruri şəbəkə var, bu sənət məbədlərinin hamısında peşəkar səviyyəli tamaşalar qoyulur, yüksək səhnə mədəniyyətinə malik sənətkarlar və istedadlı rejissorlar fəaliyyət göstərir. Teatr kollektivlərimiz dünya təcrübəsindən uğurla bəhrələnir, repertuarlarında bəşəri məzmunlu, humanist ideyalı əsərlərə xüsusi yer ayırır, tamaşaçılarda zəruri estetik zövq formalaşdırmaq kimi şərəfli iş görürlər.

Bəli, bu aparıcı sənət sahəsinin daha da inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir. Hazırda özünün şanlı yubileyinə hazırlaşan peşəkar teatrlarımızın daha böyük sənət uğurları qazanacağına inam böyükdür.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***